# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/17** **09 aprel 2015-ci il**

**"Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1209- IV QD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1143 nömrəli sərəncamının icrasının təmin edilməsi barədə**

"Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1209- IV QD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1143 nömrəli sərəncamının icrasını təmin etmək məqsədi ilə

**QƏRARA ALIRAM:**

**1.** Azərbaycan Respublikasının audit qanunvericiliyinin və Auditorlar Palatasının normativ hüquqi aktlarının "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması məqsədi ilə aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

***İşçi qrupunun rəhbəri***

Nəcəf Talıbov - Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri

***İşçi qrupunun üzvləri***

Maarif Abbasov - Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi;

Elnur İbrahimov - sərbəst auditor, Auditorlar Palatası Şurası yanında Qanunvericilik Komitəsinin sədri;

Naib Yusifov - sərbəst auditor, Auditorlar Palatası Şurası yanında Qanunvericilik Komitəsinin sədrinin müavini;

Altay Cəfərov - sərbəst auditor, Palata Şurasının üzvü;

Elnur Qurbanov - "Deloitte & Touche" məhdud məsuliyyətli cəmiyyətinin auditoru;

Nərgiz Kərimova - "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının auditoru.

**2.** İşçi qrupuna tapşırılsın ki, 1 (bir) ay müddətində Azərbaycan Rspublikasının audit qanunvericiliyinin və Auditorlar Palatasının normativ hüquqi aktlarının "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə əlaqədar təkliflərini hazırlayıb təqdim etsin.

**3.** Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1209-IV QD nömrəli Qanununun və həmin Qanunun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1143 nömrəli sərəncamının "Audit. Qanunvericilik və normativ sənədlər toplusu"nun 8-ci cildinə daxil olunmasını təmin etsin.

**4.** Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) və Aparatın informasifa texnologiyaları üzrə mütəxəssisi R.Ələkbərova tapşırılsın ki, “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 24 fevral tarixli 1209-IV QD nömrəli Qanununun və həmin Qanunun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 aprel tarixli 1143 nömrəli sərəncamının mətnlərinin, Palatanın üzvləri olan sərbəst auditorlara və auditor təşkilatlarına çatdırılması məqsədilə Palatanın intenet səhifəsində yerləşdirilməsini təmin etsinlər.

**5.** Bu sərəncamın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**PALATANIN SƏDRİ** **V. NOVRUZOV**